DÜNYA XƏBƏRLƏRİ

# Rusiya Kiyevi vurub, 12 nəfər ölüb, 33 nəfər yaralanıb

10 dəqiqə öncə




Kiyev zərbələrdən sonra

Avqustun 20-nə keçən gecə Rusiya qoşunları Kiyevə kütləvi zərbə endirib. Son məlumata görə, 12 nəfər həlak olub, 33 nəfər yaralanıb. Avqustun 21-i Kiyevdə matəm günü elan edilib.

Kiyev meri **Vitali Kliçko** bildirib ki, hücum nəticəsində Solomensk rayonunda doqquzmərtəbəli yaşayış binasının 8-ci və 9-cu mərtəbələri dağılıb. Yaxınlıqdakı dörd binanın pəncərələri sınıb, məktəbə, uşaq xəstəxanasının binasına və qarajlara ziyan dəyib. Dördmərtəbəli binanın yuxarı mərtəbələrində yanğın baş verib.




Kiyev, 20 avqust

Darnitski rayonunda qeyri-yaşayış və anbar binalarına, Svyatoşinski rayonunda qeyri-yaşayış tikililəri olan ərazidə obyektlərə ziyan dəyib, anbarlarda yanğın baş verib.

Kiyev vilayətinin Brovarı rayonunda bir nəfər həlak olub, bir nəfər yaralanıb. Vilayət hərbi administrasiyasının rəhbəri **Timur Tkaçenko**nun sözlərinə görə, bir sənaye obyektinə də ziyan dəyib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur